# Kiçikyaşlı məktəblilərin təlim materiallarını mənimsəməsinə kompüter texnologiyalarından istifadənin təsiri

**Şəlalə İltizam qızı Seyidova**
*fəlsəfə doktoru proqramı üzrə doktorant,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** seyidova.s.h.h.4@mail.ru

**Rəyçilər:** psixol.ü.f.d, dos. N.T. Rzayeva,
psixol.ü.f.d. Ç.Q. Verdiyeva

**Açar sözlər:** kiçikyaşlı məktəblilər, təlim fəaliyyəti, təlim prosesi, mənimsəmə, öyrənmə, yaradıcı tədqiqat, kompüter texnologiyaları, motivasiya, bacarıq

**Ключевые слова:** младшие школьники, концепции, учебная деятельность, учебный процесс, усвоение, обучение, творческие исследования, компьютерные технологии, мотивация, навыки

**Key words:** primary schoolchildren, concepts, educational activities, the educational process, assimilation, training, creative research, computer technology, motivation, skills

Məktəb təhsilinin başlıca vəzifəsi şagirdlərə elmi biliklərin əsaslarının mənimsədilməsidir. Bu proses mürəkkəb quruluşa malik olub bir neçə mərhələdən keçir. Belə ki, xüsusilə kiçikyaşlı məktəblilərin yeni materialı yaxşı dərk etməsi onun öyrənmə və mənimsəmə imkanlarından asılıdır. Çünki, psixikada axtarıcılığa, bələdləşməyə, icraya aid olan fəaliyyətlər öyrənmə və mənimsəmədən başlanır. Mənimsənilmiş bilik, bacarıq və vərdişlərin keyfiyyəti fəaliyyət nəticəsinin məzmununu şərtləndirir.

Elmi biliklərin əsası anlayışların mənimsənilməsi ilə qoyulur. Hələ XX əsrin əvvəllərində tədqiqatçılar P.Y.Qalperin (1), D.Bruner, R.Olver, P.Qrinfild (2), L.S.Vıqotski (3) və b. elmi anlayışların mənimsənilməsi mərhələsini ibtidai sinifdən, yəni kiçik məktəbli yaşı dövründən başladığını sübut ediblər. Onlar elmi anlayışları təlim prosesində, müəllimlərin rəhbərliyi altında mənimsəyirlər. Burada, əlbəttə ki, şagirdin şəxsi təşəbbüsü, yaradıcılığı və öz fəaliyyətini iradi tənzimləməyə olan tələbatı da mühüm rola malikdir. Bütövlükdə isə şagird təlim fəaliyyətində baş verən özünüinkişafın gedişində elmi anlayışlar üzərində qurulan elmi bilikləri hərtərəfli mənimsəməyə nail olur.

Məktəb mühitində bu proses müxtəlif əyaniliklərin köməyi ilə, hazırda isə kompüter texnologiyalarından istifadə yolu ilə həyata keçirilir. Texniki əyaniliklə təşkil olunmuş təlim fəaliyyətində əqli proseslərdə özünütənzimləmə gedir, şüurda yeni koqnitiv strukturlar formalaşır. Nəticədə koqnitiv strukturların inkişaf dərəcəsi şagirdin əqli potensialını şərtləndirir. Koqnitiv strukturların daha səmərəli formalaşması məktəblilərin məqsədyönlü, sistematik və hərtərəfli psixoloji inkişafı yolu ilə baş verir. Bu prosesə meyllərin, düşüncələrin, müxtəlif biliklərin və təəssüratların vasitəsi kimi baxılır.

A.Q.Asmolov və V.A.Petrovski kiçikyaşlı məktəblilərdə mənimsəmənin baş verdiyi təlim fəaliyyətindən bəhs edərkən onun ayrıca bütöv bir quruluşa malik olmadığını göstərirlər. Onların təlim fəaliyyəti, əslində müxtəlif komponentlərdən yaranır. Ən mühümü isə ustanovka hesab olunur. Ustanovka və şagirdin mənimsəmə prosesinin (təlim fəaliyyətinin) predmeti olan motiv də ustanovka ilə sıx bağlıdır. Fəaliyyət, müəlliflərə görə, motivasiya və əməliyyat-texniki məzmuna malik olduğundan ona bütöv, dinamik proses kimi baxılır (4, s. 73).

Göründüyü kimi, tədqiqatçılar kiçikyaşlı məktəblilərin fəaliyyətinə özünün motivinə, məqsədinə, ustanovkasına, yerinə yetirilmə şəraitinə malik olan bütöv bir quruluş kimi yanaşırlar. Şagirdlərin mənimsəmə prosesinə məhz belə yanaşmaq lazımdır. Çünki bu amillər mənimsəmənin vahidliyini, məqsədyönlülüyünü, səmərəliliyini, nəticələrin məhsuldarlığını şərtləndirir. Digər tərədən, unutmamalıyıq ki, mənimsəmənin keyfiyyəti şagirdin dərketmə motivasiyasından da asılıdır. Şagirdlərdə mənimsəmənin fərqləndirici xüsusiyyəti də məhz onların dərketmə maraqları ilə izah olunur. Əgər kiçikyaşlı məktəblidə dərketmə maraqları yoxdursa və ya zəifdirsə, buna adekvat olaraq diqqət yayınacaq, mənimsəmədə keyfiyyət aşağı düşəcək.

Hazırda mənimsəmənin nəticələri şagirdlərdə formalaşan koqnitiv bacarıqlarla müəyyənləşdirilir. Koqnitiv bacarıqlar biliklərin təcrübəyə tətbiq edildiyi, praktik təfəkkürün fəallığı şəraitində formalaşır. Bu halda təlim uşağın inkişafının mənbəyi kimi cıxış edərək onda elə yeni konstruksiyalar yaradır ki, bunlarsız, ümumiyyətlə, inkişaf gedə bilməz. Kompüter texnologiyaları ilə qurulan təlim prosesində də uşaq hansısa texniki-psixoloji əməliyyatları yerinə yetirməyi öyrənir. Bu zaman o, mənimsəmənin müxtəlif prinsiplərinə yiyələnir. Bu müxtəlif tipli əməliyyatlarda hansı prinsip uşağa asan mənimsəmə imkanı verirsə həmin prinsiplə də hərəkət edir. Beləliklə, şagird müasir texnologiyalara mənimsəmənin əlverişli, səmərəli, operativ və dolğun vasitəsi kimi yanaşaraq ondan mütəmadi olaraq istifadəyə üstünlük verir.

Mənimsəmə prosesi, həm də struktur komponentlərinə görə təhlil oluna bilər. Aparılmış tədqiqatlar göstərir ki, təhsilin 75%-i görmə yaddaşı vasitəsi ilə qavranılır. Material bu yolla qavranıldıqda təlim prosesini təsiredici edir. “Riyaziyyat dərslərində informasiya texnologiyasından modellərin verilməsi, həndəsədə şəkillərin, sxem və çertyojların qurulması üçün, ya da fiqur çəkməzdən əvvəl modelini və surətini yaratmaq üçün istifadə edilir. Xarici dil dərslərində də texnologiya mühüm rol oynayır. Musiqi dərsləri üçün kompüter texnologiyası əvəzsiz vasitədir. Eyni zamanda, fiziki məhdudiyyətli uşaqlar üçün kompüter bütün tədris materiallarını əlçatan edir” (5, s. 406).

Kiçikyaşlı məktəblilərin mənimsəmə fəaliyyətinin xüsusiyyətlərinə aid etdiyimiz bu kiçik şərhlərdən sonra onun keyfiyyətinin qaldırılmasında kompüter texnologiyalarının rolunu aydınlaşdırmağa çalışaq. Bunun üçün tədqiqat apardığımız məktəblərdə kontrol və eksperimental siniflərdə şagirdlərin təlim materiallarının necə mənimsədilməsini müəyyən etmək üçün müşahidələr apardıq. Şamaxı şəhər S.M.Qənizadə adına şəhər 1 saylı tam orta məktəbində eksperimentlər qoyduq. Şamaxı Avropa liseyini kontrol məktəb olaraq götürdük. I siniflərdə qiymətləndirmə aparılmadığından şagirdlərin akademik göstəricilərini müəllimin şərti qiymətləndirmələri əsasında ümumiləşdirdik. II və III siniflərdin akademik səviyyəsi təxminən biri-birinə yaxın idi. Şagirdlərin təxminən 41-50%-i əla, 28-37-%-i yaxşı səviyyə göstərirdilər. Kafi və aşağı nəticə göstərənlər isə 17-23% təşkil edirdi. IV “b” sinfinin akademik göstəricisi daha yüksək idi. Əla oxuyanlar 59%, yaxşı oxuyanlar 9 %, kafi və zəif oxuyanlar 28% şagirdi əhatə edirdi. Həmin məktəblərdə dərs prosesində kompüter texnologiyalarından istifadə təcrübəsi üzrə apardığımız müşahidələrin nəticələrinə görə tədqiqatın növbəti gedişini müəyyən etdik.

Məlum olduğu kimi, kiçikyaşlı məktəblilər üçün təqlidçi olmaq, özlərini böyüklərə bənzətmək xüsusiyyətləri xarakterikdir. İbtidai siniflərdə riyaziyyat, ana dili, həyat bilgisi, texnologiya və d. dərslərin təşkilində kompüterdən istifadə etmək müasir texniki tərəqqi dövrü üçün spesifik haldır. Təlim fəaliyyətində kiçikyaşlı məktəblilərə kompüter texnologiyaları vasitəsi ilə təsir göstərmək üçün müəllimlər bir sıra texnoloji səriştələrə malik olmalıdırlar. Ona görə də tədqiqatın I mərhələsində müəllimlərlə bu mövzu üzrə iş apardıq. Əvvəlcə onların malik olduqları texnoloji səriştələri müəyyən etməkdən ötrü anket sorğu keçirdik. Sorğu O.S.Kislisının metodikasına uyğunlaşdırılmışdır (7).

Əvvəlcə ibtidai siniflərdə işləyən müəllimlərlə seminarlar təşkil etdik. Onlara təhsil sistemində tətbiq edilən kurikulum standartlarının reallaşdırılması üçün tələb olunan səriştələrin, bacarıqların səviyyələrini müəyyən etdik. Bu məqsədlə ayrıca olaraq metodik vəsait hazırlayaraq müəllimləri onunla tanış etdik. Dərsdən sonra təşkil etdiyimiz 7 günlük məşğələlərdə vacib mövzular üzrə maarifləndirmə və təkmilləşdirmə işi apardıq. Kompüter texnologiyalarından dərslərdə necə istifadə etməyin əhəmiyyətli tərəflərinin izah etmək üçün öyrədici seminarlar keçirdik. Məşğələləri hazırladığımız proqram əsasında keçirdik.

Burada biz kompüter texnologiyalarının köməyi ilə kiçikyaşlı məktəblilərdə mənimsəmənin keyfiyyətini artırmaq üçün tətbiq etdiyimiz texnologiyadan bəhs edəcəyik. Həmin texnologiya xüsusi proqram əsasında hazırlanaraq həyata keçirilmişdir.

Proqramın mövzusu: "Müasir dərsdə kompüter texnologiyalarının rolu"

Proqramın məqsədi: Kompüter texnologiyalarının köməyi ilə uşaqlara insan, cəmiyyət, təbiət və onlar arasındakı qanunauyğunluqlar haqqında ilkin həyati biliklərin verilməsini təmin etmək; şagirdlərdə məntiqi və yaradıcı təfəkkür elementlərini formalaşdırmaq, istedadlı uşaqların erkən yaşdan üzə çıxarılmasını və inkişafını təmin etmək; onlara həssaslıq, estetik və bədii zövq, əxlaqi-mənəvi keyfiyyətlər, fiziki mədəniyyət və özünəxidmət bacarıqları aşılamaq.

Proqramın mərhələləri:

I. Kompüter texnologiyaların tətbiqi prosesində müəllimin bələdçilik funksiyasını həyata keçirilməsi qaydaları ilə tanışlıq.

II. Dərsin mərhələlərində kompüter texnologiyalarından istifadə üzrə təlimlər.

III. Dərsliklər və veb materiallar üzərində iş

IV. Dərsliklərin və əlavə təlim resurslarının tətbiqi

*V. Dərsin müxtəlif mərhələlərində veb-materialların nümayişi və təhlili.*

VI. Nümunəvi dərs məşğələlərinin təşkili və ümumiləşdirmə

II mərhələdə Şamaxı şəhər S.M.Qənizadə adına şəhər 1 saylı tam orta məktəbində eksperimentlər qoyduq. Şamaxı Avropa liseyini kontrol məktəb götürdük.

Fənlər üzrə müşahidələr təşkil etdik, müəllimlərlə birgə kompüter texnologiyaları əsasında yeni dərs nümunələri hazırlayıb həyata keçirdik. Belə dərslərdə təqdimatlara geniş yer verdik. Çünki təqdimatlar təlimin vacib və son dərəcə faydalı bir hissəsidir. Müəllim yalnız öyrənilən mövzuya dair informativ material nümayiş etdirə bilməz, həm də müəyyən düşüncə məntiqini formalaşdıra bilər. Kiçikyaşlı məktəblilərə edilən bütün təqdimatlar eyni məntiqi sxem üzərində qurulur.

Hər bir təqdimat müəllimin müəyyən bir formada istifadə edə biləcəyi və ya tapşırığı üçün düzəldə biləcəyi bir neçə slayddan ibarət olan açıq didaktik bölmədir. Müəllim istəsə dizayn tərzini dəyişdirə, slaydlar əlavə edə və ya silə, mətnləri və təsvirləri redaktə edə bilər. Şagirdlər də təqdimata da bəzi dəyişikliklər edə bilərlər. Qabiliyyətli şagirdər üçün əlavə yaradıcı tapşırıq olaraq slayd redaktəsindən istifadə etmək səmərəlidir. Evində şəxsi kompüteri olan, məktəbdən sonra təqdimatların yaradılması və redaktəsi üsullarını müstəqil mənimsəyən şagirdlər üçün bu iş o qədər də çətinlik yaratmır.

İbtidai siniflərdə keçirilən dərslərdə kompüterdən istifadənin konkret nümunəsi üçün müşahidə qeydlərimizə istinad edə bilərik.

IV sinif. "Ana dili".

Mövzu: "Yaz fəsli".

Avadanlıq: kompüter, proyektor, səsucaldıcı, bahar mənzərələri olan slaydlar. Mahnı oxunduqca slaydlar biri-birini əvəz edir.

Müəllim dərsdə səmərəli fəaliyyət üçün motivasiya apararaq pozitiv əhval-ruhiyyə yaradır.

İnternetin yutub kanalından yaz haqqında F.Əmorovun "Bahar gəlir" mahnısı videogörüntü ilə səsləndirilir. (https://www.youtube.com/ watch?). Hamı mahnını yüksək səslə xorla müşayiət edir. Ardınca kompüter vasitəsi ilə ilin slaydlarda yazın çiçəkləri, təbiəti, meşələr, çaylar, dağlar, dərələr, təbiətin rəngləri müzakirə olunur.

Bu cür dərslər yaradıcı qabiliyyətlərin inkişafına, zehni və idrak fəaliyyətinin aktivləşməsinə kömək edir. Kompüter kimi mürəkkəb bir texniki vasitəni idarə etmək, kiçikyaşlı məktəbliləri motivləşdirir, mənimsəmə imkanlarını artırır.

Bu tədqiqat göstərir ki, vizual animasiyalar, dinamik rəsmlər, diaqramlar və cədvəllər, rəngli fotoşəkillərin köməyi ilə hazırlanan təlimatlar şagirdlərə təbiətin sirli qanunlarını anlamağa kömək edir. Bütün materiallar rəvayət şərhləri ilə müşayiət olunur. Bu da onlarla işləməyi maraqlı edir. Sinifdə istifadə edilən digər bir multimedia təqdimatı "Sən və cəmiyyət" mövzusunda idi. Onun köməyi ilə şagirdlərə, nəinki ətrafdakı dünya ilə tanış olmağa, həm də onunla qarşılıqlı əlaqə qurmaq qaydaları ilə tanış olmağa, öz təhlükəsizliyini qorumağa kömək edir. Bu təlim materialı şagirdlərin qavranması və mənimsəməsi üçün ən uyğun olan oyun şəklində təqdim olunur. Şagirdə vizual yolla əyləncəli üsullarla verilən çoxsaylı tapşırıqlar tədris proqramının materialını asanlıqla və davamlı öyrənməyə imkan verir, Diqqəti, məntiqi və tənqidi təfəkkürü inkişaf etdirir.

Tədris fəaliyyətinin motivasiyalaşdırılması və mövzuları mənimsəmə səviyyəsinin diaqnostikası göstərir ki, şagirdlərdə ən çox maraq kompüterdən istifadə edilən dərslərdir. Müxtəlif təlim mərhələlərində kompüterdən istifadə etmək, şagirdlərin mənimsəməyə sərf etdikləri dərs vaxtının 15-20% əvəzinə 75-80% -ə çatmasına imkan verir. Ətraf aləm haqqında yoxlayıcı və nəzarət işlər biliklərin mənimsənilməsində ümumi məlumatlılığın müsbət dinamikasını göstərir. Bu fənn üzrə tədqiqat apardığımız sinifdə təlim materiaillarının mənimsənilməsi 65-85% arasında dəyişirdi. Yəni, şagirdlərin böyük əksəriyyətinin həmin fəndən akademk qiymətləri 4-5 səviyyəsində idi. Tədqiqatın sonunda isə bu göstərici 75-93%-ə qədər qalxmışdı.

Azərbaycan dili dərslərində kompüterdən istifadənin səmərəliliyinin ilkin diaqnostikasını aşağıdakı göstəricilərə Ana dili dərslərində şagirdlərin dərketmə fəaliyyətinin artırılması üzrə təşkil etdik. Kompüterdən istifadə ilə təşkil edilən Ana dili dərslərində şagirdlərin fəaliyyətini izlədik. Onların bu fənn üzrə fəallığı müşahidə edildi. Əgər şagirdlər ənənəvi üsulla (deklorativ) keçirilən dərsdə işləmirdilərsə, müəllimin verdiyi məlumatlara biganə yanaşırdılarsa, bu fənn üzrə kompüterdən istifadə olunan dərslərdə bütün uşaqlar canlanır, səmərəli fəaliyyətə cəlb olunurdular. Dərsdə verilən sualların müzakirəsində iştirak etməyə çalışır, öz fikirlərini bildirməkdən çəkinmir, cüt-cüt və qrupla asanlıqla işləyərək əldə etdikləri məlumatları bir-birləri ilə paylaş, birgə cavablar hazırlayırdılar. Hətta, dərsdəki hay-küy belə narahatlıq yaratmırdı. Ən susqun, laqeyd, birgəfəaliyyətə marağı olmayan inadkar şagirdlər də tapşırıqları birlikdə yerinə yetirmək istəklərini təzahür etdirirdilər. Fikri və praktik dərketmə prosesi nə qədər fəal başlayırsa, həmin fənn üzrə nəticəsi bir o qədər məhsuldar olmuşdur.

Dərslərdə kompüter texnologiyalarının tətbiqi təcrübəsini təhlil edərək əminliklə deyə bilərik ki, ondan istifadə aşağıdakıları təmin edir:

1. Kompüter texnologiyalarının tətbiqi bütövlükdə şagirdlərin dərketmə fəaliyyətini intensivləşdirir.

2. Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində kompüter texnologiyalarının tətbiqi dərsləri yüksək estetik və emosional səviyyədə keçirməyə imkan yaradır.

3. Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətində kompüter texnologiyalarından istifadə edildikdə şagirdlərə fərdi yanaşma asanlaşır, onların yaradıcılıq qabiliyyətləri üzə çıxır və psixoloji keyfiyyətlərinin yüksək dərəcədə fərqləndirilməsinə imkan yaranır.

4. Kompüter texnologiyalarından istifadə dərsdə yerinə yetirilən işlərin həcmi artır, səmərəliliyini təmin edir, şagirddə öz fəaliyyətinin nəticələrini obyektiv qiymətləndirmə imkanları yaranır. Kompüter texnologiyaları bilikləri mənimsəməyə nəzarəti təkmilləşdirir, bu prosesi optimallaşdıraraq şagirdlərdə özünüfəallaşdırmanı təmin edir.

5. Kompüter texnologiyalarının şagirdlərdə tədqiqatçılıq bacarıqlarını inkişaf etdirin, mənimsəmənin keyfiyyətini artırır. Müxtəlif istinad mənbələrinə, elektron kitabxanalara və digər informasiyalara çıxışı təmin edir, şagirdlərə mənimsədikləri bilikləri və bacarıqları alternaviv nümunələrlə müqayisə etməyə imkan verir.

**Məqalənin aktuallığı.** Müasir dövrün tələbi olan Kompüter texnologiyalarından istifadə kiçikyaşlı məktəblilərin təlim materialını mənimsəməsinə müsbət təsir edir. Bu baxımdan məqalə akruallıq kəsb edir.

**Məqalənin elmi yeniliyi.** Aparılan tədqiqatlar vasitəsilə kompüter texnologiyalarının təlim prosesinə təsir mexanizmi müəyyən olunmuşdur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə bu sahədə araşdırmalar aparan tədqiqatçılar və ibtidai sinif müəllimləri üçün əhəmiyyət kəsb edə bilər.

## Ədəbiyyat

1. Гальперин П.Я. Введение в психологию: Учебное пособие для вузов. М.: Университет, 1999.

2. Брунер Дж., Олвер Р., Гринфилд П. Исследование развития познавательной деятельности. М.: Педагогика, 1971.

3. Выготский Л.С. Собрание сочетаний. Детская психология. М.: Педагогика, 1984.

4. Асмолов А.Г., Петровский В.А. О динамическом подходе психологическому анализу деятельности // Вопросы психологии. №1, 1978.

5. Əsədpur K. Təlim prosesində informasiya texnologiyalarından istifadə müasir dövrün tələbi kimi // Tarix və onun problemləri. № 4, 2009.

**Ш.И. Сеидова**

## Влияние использования компьютерных технологий на освоение учебных материалов для маленьких детей

### Резюме

В статье отмечается, что приобретенные навыки, квалификация и привычки составляют содержание действия. В настоящее время результаты усвоения определяются когнитивными навыками, которые используются у студентов. Когнитивные навыки формируются за счет применения знаний на практике и активности практического мышления. В компьютерном процессе обучения ребенок учится выполнять технические и психологические операции.

**Sh.İ. Seyidova**

## The use of computer technology is not an option flight materials for children


## Summary

The article notes that the acquired skills, qualifications, and habits make the content of action result. At present, the results of mastering are determined by cognitive skills that are used in students. Cognitive skills are shaped by the application of knowledge to practice and the activeness of practical thinking. In a computer-based learning process, the child learns to perform technical and psychological operations.


**Redaksiyaya daxil olub:** 22.02.2020